AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

Auditor xidmətində dempinqə qarşı mübarizə üzrə

TÖVSİYƏLƏR

Bakı-2021

Giriş

Auditor xidməti bazarında haqsız rəqabətin qarşısının alınması ilk növbədə göstərilən xidmətin keyfiyyətinin və xidmətə olan ictimai etimadın yüksəldilməsinə xidmət edir. Haqsız rəqabətə və xüsusilə də onun tərkib hissəsi olan dempinqə qarşı mübarizə xidmət bazarının sağlamlaşdırılmasında xüsusi əhəmiyyətə malikdir. Dempinqə qarşı mübarizənin təkmil normativ bazası ilə təmin edilməsi və reqlamentləşdirilmiş prosedurların müəyyən edilməsi bu tədbirlərin yüksək səviyyədə həyata keçirilməsinə zəmin yaradır. Bu tövsiyyələr "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf Konsepsiyasına (2021-2030-cu illər), Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2015-ci il 25 noyabr tarixli 269/1 nömrəli qərarı ilə I redaksiyada, 2017-ci il 30 iyun tarixli 288/4 nömrəli qərarı ilə II redaksiyada bəyənilmiş Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sisteminə, Beynəlxalq Mühasiblər Federasiyasının Beynəlxalq Audit Standartlarına, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) və Auditorlar Palatası Şurasının 333/2 nömrəli 11 avqust 2021-ci il tarixli qərarına əsasən hazırlanmışdır.

Tövsiyyələrin məqsədi

Tövsiyyələrin məqsədi:

• Sərbəst auditorlar və auditor təşkilatlarının sağlam rəqabət əsasında fəaliyyət göstərmələri üçün əlverişli şərait yaratmaqdan;

• Sərbəst auditorlar və auditor təşkilatları arasında haqlı rəqabət mühiti yaratmaq və onlar tərəfindən rəqabəti məhdudlaşdıran müqavilələr bağlanmasının qarşısının alınması istiqamətində zəruri tədbirlər görmək və rəqabət qabiliyyətlərinin güclənməsinə yönəldilmiş tədbirlər həyata keçirməkdən;

• Audit bazarında haqsız rəqabət hallarının və maraqlar toqquşmasının tənzimlənməsinə yönəldilmiş tədbirlər görməkdən ibarətdir.

Əsas anlayışlar

Bu Tövsiyyələrin məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə olunur:

Audit – əmtəə istehsalı və satışı, xidmət göstərilməsi və iş görülməsi ilə məşğul olan təsərrüfat subyektlərində mühasibat uçotunun dəqiq və dürüst aparılmasının, mühasibat və maliyyə hesabatlarının müstəqil yoxlanılmasıdır.

Auditor – auditor adı almaq üçün imtahanları müvəffəqiyyətlə vermiş,

sərbəst auditor və ya auditor təşkilatının auditoru qismində fəaliyyət göstərmək hüququ əldə etmiş fiziki şəxsdir.

Auditor xidməti – maliyyə hesabatlarının əhəmiyyətli səhvlərdən azad olunmasını təmin etmək məqsədi ilə audit subyektinin maliyyə hesabatlarının və digər məlumatlarının auditor tərəfindən müstəqil yoxlanılması, qiymətləndirilməsi və onun düzgünlüyü, əsaslılığı, habelə bu hesabatların Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya digər standart və qaydalara uyğunluğu barədə auditor hesabatının verilməsi və ya müvafiq hallarda auditor hesabatında rəy bildirilməsindən imtina edilməsi üzrə görülən və maliyyə təsərrüfat sahəsində əlaqəli xidmətlər göstərilən fəaliyyət sahəsidir.

Sərbəst auditor – müəyyən olunmuş qaydada Auditorlar Palatanın üzvlüyünə qəbul edilmiş və respublika ərazisində auditor xidməti göstərmək hüququnu əldə etmiş fiziki şəxs;

Auditor təşkilatı – müvafiq qaydada dövlət qeydiyyatına alınmış, Auditorlar Palatasına üzv qəbul edilmiş hüquqi şəxs və ya filial;

Audit subyektləri – mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün hüquqi və fiziki şəxslər(fərdi sahibkarlar), habelə filiallar;

Beynəlxalq Audit Standartları – Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) tərəfindən qəbul olunmuş və təsdiqlənmiş Standartlar;

Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi – Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) tərəfindən qəbul olunmuş və təsdiqlənmiş Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi;

Rəqabət – auditorlar arasında sahibkarlıq fəaliyyətinin ən əlverişli şərtləri uğrunda mübarizənin elə formasıdır ki, bu zaman onların müstəqil fəaliyyəti hər birinin auditor xidməti bazarında xidmət dövriyyəsinin ümumi vəziyyətinə təsir etmək imkanını əsaslı surətdə məhdudlaşdırır və sifariş.iyə lazım olan xidmətin göstərilməsini stimullaşdırır;

Haqsız rəqabət – auditorlar sahibkarlıq fəaliyyətində mövcud qanunvericiliyə zidd və ədalətsiz üsullarla üstünlük əldə etməyə yönəlmiş, bununla da digər auditorlara (rəqiblərinə) zərər vura bilən, yaxud onların işgüzarlıq nüfuzuna xələl yetirə bilən hərəkətləri;

Dempinq – Bu Tövsiyələrin məqsədləri üçün dempinq Sərbəst auditor və auditor təşkilatı tərəfindən auditor xidməti üçün qeyri-bərabər şəraitin yaradılması (dempinq qiymətləri, qiymət ayrı-seçkiliyi (auditor xidmətinin fərqli qiymətlərə təklif və təqdim edilməsi)) kimi başa düşülməlidir.

Dempinqə qarşı mübarizə prosedurları

Dempinqə qarşı mübarizə dempinqin aşkar edilməsi, sübutların əldə edilməsi, təsnifləşdirilməsi, intizam və tənbeh tədbirlərinin müəyyən edilməsi və tətbiqi prosedurlarını, materialların təhlilini, təkliflərin və tövsiyələrin hazırlanmasını, habelə nöqsanların aradan qaldırılması üzrə tədbirlərin izlənilməsi və qabaqlayıcı tədbirlərin görülməsindən ibarətdir. Bu prosedurlar"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununun, "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının Qanununun, Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf Konsepsiyasının(2021-2030-cu illər), Beynəlxalq Audit Standartlarının və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) və Auditorlar Palatasının digər sənədlərinin tələbləri nəzərə alınmaqla icra edilməlidir.

Dempinqə qarşı mübarizə prosedurları aşağıdakılardan ibarətdir:

- Dempinq hallarının aşkar edilməsi;
- Sübutların əldə edilməsi və təsnifləşdirilməsi;
- İntizam və tənbeh tədbirlərinin müəyyənləşdirilməsi və tətbiqi prosedurları;
- Materialların təhlili;
- Təklif və prosedurların hazırlanması;
- Qabaqlayıcı tədbirlərin görülməsi üzrə təkliflərin verilməsi.

Dempinq hallarının aşkar edilməsi.

Dempinq halları aşağıdakı mənbələrdən əldə olunan məlumatlar əsasında aşkar edilə bilər:

1) Auditorlar Palatası Şurası yanında müvafiq Komitələrin məlumatları;

2) Auditorlar Palatasının müvafiq struktur bölmələrinin məlumatları;

3) Aparılmış auditlərin keyfiyyətinə nəzarət tədbirlərinin materialları;

4) Audit subyektlərinin müraciətləri;

5) Səlahiyyətli dövlət orqanlarının müraciətləri;

6) QHT-lər və Vətəndaş cəmiyyətləri instututlarının müraciətləri;

7) KİV və sosial şəbəkələrin məlumatları;

8) Auditor xidmətinin istifadəçiləri və digər şəxslər tərəfindən daxil olmuş məlumat və müraciətlər;

9) Auditorların müraciətləri;

10) Auditorların şəxsi kabinetinin məlumatları;

11)Sosial sorğuların məlumatları.

Auditor xidməti üzrə haqsız rəqabətə qarşı mübarizə sahəsində araşdırmalar əvvəlki abzasda göstərilən məlumatlar, faktlar və müraciətlər nəzərə alınmaqla Auditorlar Palatası Şurasının qərarları, Auditorlar Palatası sədrinin əmr və ya sərəncamları əsasında belə səlahiyyətlərə malik Komitə və ya struktur bölmə tərəfindən aparılır.

Sübutların əldə edilməsi və təsnifləşdirilməsi

Yuxarıda göstərilən mənbələrdən əldə olunmuş məlumatların dürüstlüyünün yoxlanılması və dəqiqləşdirilməsi məqsədi ilə müvafiq sübutlar əldə edilməlidir. Bu sübutlar ehtimal edilən dempinq hallarına yol verən və ya ona məruz qalan auditorların izahatlarında və ya 3-cü şəxslərin məlumatlarında ibarət ola bilər.

Məsələn:Tenderdə və ya kotirovka proseslərində auditorun qalib gəlməsi ilə bağlı müvafiq dövlət saytından əldə olunmuş məlumat, həmin tender (katirovka) müsabiqəsində iştirak edən digər auditorların izahatları ilə dəqiqləşdirilə bilər. Bu sübutlar haqsız rəqabət (dempinq) əlamətlərinin təsnifləşdirilməsi üçün əsas rol oynaya bilər. Bu prosedurlar icra olunan zaman Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2017-ci il 31 yanvar tarixli 285/5 nömrə qərarı ilə təsdiq olunmuş "Auditor Xidməti Bazarında Haqsız Rəqabətin Əlamətləri" metodik materialından istifadə oluna bilər.

İntizam və tənbeh tədbirləri

Dempinq hallarının aşkar edilməsi sübutların əldə olunması və bu halların təsnifləşdirilməsi nəticə etibarı ilə həmin hallara görə intizam və tənbeh tədbirlərinin müəyyən edilməsi ilə yekunlaşmalıdır. Müvafiq struktur bölmə dempinq ilə bağlı materialı təhlil edərək müvafiq intizam və tənbeh tədbirlərinin tətbiq edilməsi təklifi ilə Palatanın rəhbərliyinə təqdimat verilməlidir. İntizam və tənbeh tədbirlərin Auditorlar Palatası Şurasının 2015-ci il 25 noyabr 269/1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi"nə müvafiq olaraq müəyyən edilməlidir.

Materialların təhlili, təklif və tövsiyələrin hazırlanması

Müvafiq struktur bölmə və ya komitə və ya s. tərəfindən rübdə bir dəfə mövcud halların ümumi təhlil aparılmalı və Palatanın rəhbərliyinə əməli təkliflər və tövsiyələr təqdim edilməlidir.

Aşkar olunmuş nöqsanların aradan qaldırılması üzrə tədbirlərin izlənilməsi və qabaqlayıcı tədbirlərin görülməsi

Müvafiq struktur bölmə tərəfindən təqdim olunmuş materialların əsasında fəaliyyətində dempinq ilə bağlı nöqsanlar aşkar edilmiş auditorun barəsində görülmüş intizam və tənbeh tədbirlərinin yerinə yetirilməsi, belə nöqsanlara yol verilməməsi ilə əlaqədar hər hansı reqlamentləşdirici göstərişin icrası izlənilməli, habelə təkrar belə hallara yol verilməsi cəhdlərinin qarşısının alınması üçün müvafiq tədbirlər görülməlidir.

Auditor xidmətində dempinqə qarşı mübarizə aşağıdakı cədvəldə əks olunduğu kimi həyata keçirilməlidir.

№	Tədbirin adı	İcraçı	İcra müddəti	Qeyd
1.	**Dempinq hallarının aşkar edilməsi.**	Müvafiq struktur bölmə	Müntəzəm	
2.	**Sübutların əldə edilməsi və təsnifləşdirilməsi**	Müvafiq struktur bölmə	Dempinq hallarını aşkar edilməsi məqamından sonrakı 5-10 iş günü müddətində	
3	**İntizam və tənbeh tədbirlərinin müəyyən edilməsi və Palata rəhbərliyinə təqdim edilməsi**	Müvafiq struktur bölmə	Əvvəlki bənddən sonrakı 3 iş günü müddətində	
4	**Materialların təhlili: təklif və tövsiyələrin hazırlanması**	Müvafiq struktur bölmə və Komitə	Hər rüb	
5	**Aşkar olunmuş nöqsanların aradan qaldırılması üzrə tədbirlərin izlənilməsi və qabaqlayıcı tədbirlərin görülməsi**	Müvafiq struktur bölmələr, Komitələr	Müntəzəm	

Gözlənilən nəticə

Dempinqin aşkar edilməsi, sübutların əldə edilməsi, təsnifləşdirilməsi, intizam və tənbeh tədbirlərinin müəyyən edilməsi və tətbiqi prosedurlarını, materialların təhlilini, təkliflərin və tövsiyələrin hazırlanmasını, habelə nöqsanların aradan qaldırılması üzrə tədbirlərin izlənilməsi və qabaqlayıcı tədbirlərin görülməsi görülməsi ilk növbədə göstərilən auditor xidmətlərinin keyfiyyətinə müsbət təsir göstərməklə, nəticə etibarı ilə auditi aparılan maliyyə hesabatlarının şəffaflığının artırılmasına xidmət edir ki, bu da öz növbəsində səhmdar və təsisçilərə, habelə menecmentə düzgün iqtisadi qərar qəbul etməyə imkan verir. Bu bir tərəfdən baş verə bilən nöqsan və çatışmazlıqların qarşısının alınmasına, digər tərəfdən belə neqativ halların aşkar edilməsinə və aradan qaldırılmasına şərait yaradır.

İstifadə olunan ədəbiyyətin siyahısı

1. Azərbaycan Respublikasında Auditor Fəaliyyətinin İnkişaf Konsepsiyası (2021-2030-cu illər);
2. Auditor xidməti haqqında Azərbaycan Respublikasının Qanunu; http://e-qanun.az/framework/9236
3. Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi (Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2015-ci il 25 noyabr tarixli 269/1 nömrəli qərarı ilə I redaksiyada, 2017-ci il 30 iyun tarixli 288/4 nömrəli qərarı); https://audit.gov.az/uploads/Shura_288_4_elave.pdf
4. Haqsız rəqabət haqqında Azərbaycan Respublikasının Qanunu; http://www.e-qanun.az/framework/9475
5. Keyfiyyətə nəzarət, audit, təhlil, digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə Beynəlxalq Standartlar toplusu;
6. Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə; https://audit.gov.az/uploads/Standart_SON1.pdf
7. Auditorların müstəqillik qaydaları (Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 202-ci il 29 iyun tarixli, 321/8 nömrəli qərarı ilə təsdiq edilmişdir).

İcraçı:

Nəcəf Talıbov – Sədrin elmi-metodik məsələlər üzrə müşaviri

Şəfiqə Əsgərova – Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinin müdirinin müavini